## Azərbaycanın özü qədər əbədi

# Millət atasına hüznlü vida

15 dekabr 2003-cü il...

Düz 20 il əvvəlin şaxta-sazağı əlləri, qəmkədəri ürəkləri sızladan hüznlü günü...

Azərbaycan xalqının yasa boğulduğu, matəmə qərq olduğu tarix...

Gözüyaşlı insan selinin Fəxri xiyabana sarı üz tutduğu, xilaskar saydıqları uca insanla sonuncu dəfə vidalaşmaq, ehtiramını, dərin kədərini, ələmini izhar etmək istədiyi kədərli an...

Həyatını başdan-başa Azərbaycana həsr etmiş, ömrünü Azərbaycan xalqının yolunda şam kimi əritmiş dünyanın ən böyük azərbaycanlısı, millət atası, Ulu Öndər Heydər Əliyevin əbədiyyətə, sonsuzluğa uğurlandığı zaman...





### Azərbaycan xalqı dərin matəmə qərq oldu

2003-cü il dekabrın 12-də dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin Klivlend klinikasında uzun sürən ağır xəstəlikdən sonra vəfat etməsi barədə gələn ağır xəbər Azərbaycan xalqını dərindən sarsıtdı, insanlarımız göz yaşlarına qərq oldu...

Bir andaca Bakının küçələri, meydanları al qırmızı qərənfillərə büründü, ölkənin hər yerindən paytaxta üz tutan insanlar Ümummilli Lideri ilə son "görüş"ə tələsdi...

On minlərlə insan Prezident sarayına doğru axın etdi, qəhər göz yaşları içərisində sarayın pillələrini, Ümummilli Liderin qara lentlə haşiyələnmiş portretinin önünü tər çiçəklərə bürüdü... Ulu Öndərin ruhuna dualar oxundu...

Ümummilli Lider Heydər Əliyevin vəfatı ilə əlaqədar Azərbaycan ərazisində yeddi günlük matəm elan olundu. Dekabrın 13-də Prezident İlham Əliyev Heydər Əliyevin dəfni üzrə dövlət komissiyasının yaradılması haqqında sərəncam imzaladı.

Dünyanın dörd bir yanından ölkəmizin rəhbəri İlham Əliyevə Ulu Öndər Heydər Əliyevin vəfatı ilə bağlı başsağlığı məktubları, teleqramları ünvanlandı, dövlət başçıları, tanınmış ictimai-siyasi xadimlər bu böyük itkiyə görə Ümummilli Liderin oğluna, Azərbaycanın Prezidentinə dərin hüznlərini çatdırdılar...

2003-cü il dekabrın 14-də unudulmaz insan Heydər Əliyevin cənazəsi Azərbaycana gətirildi. Ertəsi gün - dekabrın 15-də isə Respublika Sarayında (Heydər Əliyev Sarayı) Ulu Öndərlə ümumxalq vida mərasimi keçirildi.

Həmin gün Ulu Öndərlə vida mərasimində xeyli duyğulu anlar yaşanmışdı, amma dahi şəxsiyyətin oğlu, onun ideyalarının, siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin ata itkisi ilə göz yaşlarına boğulması hər kəsi dərindən mütəəssir etdi...

### "Heydər Əliyev bütün türk dünyasında tanınan və sevilən lider idi"

Dekabrın 15-də Ulu Öndər Heydər Əliyevlə ümumxalq vida mərasimində Prezident İlham Əliyev, Əliyevlər ailəsi, ölkəmizin tanınmış və sadə adamları ilə yanaşı, dünyanın nüfuzlu ölkələrinin rəsmi şəxsləri, başçıları da iştirak edirdilər. O gün xaricdən gəlmiş yüksəksəviyyəli qonaqlar Heydər Əliyev timsalında dostlarına, qardaşlarına vida etmək, böyük ehtiramlarını bildirmək üçün Bakıda idilər...

Türkiyənin sabiq prezidenti Əhməd Necdət Sezər, Türkiyə Respublikasının keçmiş baş naziri Rəcəb Tayyib Ərdoğan (indi Prezident), Rusiya Prezidenti Vladimir Putin, Gürcüstanın sabiq dövlət başçısı Eduard Şevardnadze, Qazaxıstanın sabiq prezidenti Nursultan Nazarbayev, Acarıstan Muxtar Respublikasının keçmiş prezidenti Aslan Abaşidze, Ukraynanın sabiq prezidenti Leonid Kuçma, Dağıstan Respublikası Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov, Gürcüstan Prezidentinin vəzifəsini icra edən Nino Burcanadze, Moskvanın ovaxtkı meri Yuri Lujkov və digər dövlət başçıları və siyasi xadimlər müdrik rəhbər Heydər Əliyevin dəfnində iştirak etmək üçün Azərbaycana səfərə gəlmişdilər.

Böyük dövlət xadimi Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün dekabrın 15-də 100 nəfərlik nümayəndə heyəti ilə Bakıya gələn Türkiyə Respublikasının ozamankı baş naziri Rəcəb Tayyib Ərdoğan Ulu Öndərlə bağlı fikirlərini bölüşərək söyləmişdir: "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. Türkiyə-Azərbaycan dostluğunu çox gözəl ifadə edən "Bir millət, iki dövlət" ifadəsi də ona məxsusdur. Çalışmalıyıq ki, bu hikmətənə deyimin ifadə etdiyi amal bundan sonra da davam etsin".

"Böyük Heydər Əliyevin ruhu şad olsun deyə, biz türk dünyasının qardaşlıq münasibətlərini və birliyini qoruyub möhkəmləndirməyə çalışmalıyıq" söyləyən Rəcəb Tayyib Ərdoğan onu da vurğulamışdı ki, Türkiyə-Azərbaycan münasibətləri elə möhkəm təməl üzərində qurulmuşdur ki, bunu heç bir qüvvə sarsıda bilməz: "Əminəm ki, Azərbaycan Prezidenti İlham Əliyev hörmətli Heydər Əliyevin yolu ilə gedərək, münasibətlərimizin inkişafına yeni töhfələr verəcəkdir".

### "Heydər Əliyevin miqyası Azərbaycanın hüdudlarından kənara çıxmışdı"

Ümummilli Lider Heydər Əliyev ilə vidalaşma mərasimində iştirak etmək üçün 100 nəfərlik nümayəndə heyəti ilə Azərbaycana gələn Rusiya Prezidenti Vladimir Putin vurğulamışdı ki, Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün keçmiş ittifaq miqyasında tanınmış şəxsiyyət idi: "Onun barəsində müxtəlif fikirlər var idi, amma mən şəxsən onunla tanış olduqdan və birgə işlədikdən sonra Heydər Əliyevə münasibətim yaxşılığa doğru kökündən dəyişdi. Başa düşdüm ki, o, çox inanılmış, ağıllı, dəqiq, bacarıqlı rəhbər, əsl siyasətçi idi".

Vladimir Putin onu da qeyd etmişdir ki, Heydər Əliyevin miqyası Azərbaycanın hüdudlarından kənara çıxmışdı: "Açıq deyim, Azərbaycanın bəxti gətirmişdir ki, dövlətin başında Avropa və dünya miqyasında tanınan bir siyasətçi dururdu. O, bir tərəfdən beynəlmiləlçi, digər tərəfdən isə öz yurdunun vətənpərvəri idi. Heydər Əliyev həm də Rusiyanın dostu idi. Bu böyük insanın vəfatı onu tanıyanların hamısını, o cümlədən şəxsən məni çox kədərləndirmişdir. Onunla şəxsi, çox səmimi münasibətlərimiz var idi..."

Heydər Əliyevlə vida mərasimində Qazaxıstanın keçmiş prezidenti Nursultan Nazarbayev Ulu Öndərlə bağlı fikirlərini belə izhar etmişdi: "Heydər Əliyev mənim yaxın dostum və ən çox hörmət etdiyim bir siyasətçi idi. Hamımıza məlumdur ki, Heydər Əliyev həm MDB ölkələri, həm də öz xalqı üçün çox işlər görüb. Onun öz xalqı üçün gördüyü işlər çox böyükdür. Son nəfəsinə qədər də o, öz xalqının rifahı üçün çalışıb..."

### "Heydər Əliyevin vəfatı dünya üçün böyük itki oldu..."

Dekabrın 15-də Ümummilli Lider Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Bakıya gələn Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadze əziz dostu Heydər Əliyevin vəfatının təkcə Azərbaycan üçün deyil, bütün Qafqaz ölkələri, eləcə də dünya üçün böyük itki olduğunu vurğulamışdı: "Yaşımın bu çağında uzun illərin sınağından çıxmış sədaqətli bir dostumu itirməyim məni son dərəcə kədərləndirmişdir. Unudulmaz Heydər Əliyevin həyata keçirmək istədiyi bir sıra böyük layihələr var idi. Ümid edirəm ki, bunlar mütləq həyata keçiriləcəkdir".

Gürcüstan Prezidentinin vəzifəsini icra edən Nino Burcanadze bildirmişdi ki, Heydər Əliyev Gürcüstan dövləti və xalqı üçün çox işlər görmüşdür: "Onun xidmətləri əvəzolunmazdır. Xalqlarımızın, dövlətlərimizin əlaqələrinin və münasibətlərinin inkişafında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Ümid edirəm ki, bizim əlaqələrimiz bundan sonra da davam edəcəkdir. Mən Heydər Əliyev ilə keçirdiyim görüşləri heç vaxt unutmayacağam..."

Ukraynanın keçmiş prezidenti Leonid Kuçma Azərbaycanın böyük şəxsiyyəti Heydər Əliyevin onun və Ukrayna xalqının yaxın dostu olduğunu qeyd etmişdir: "Bizim dostluq münasibətlərimiz onun sayəsində inkişaf etmişdir. Heydər Əliyev dahi insan, müdrik şəxsiyyət idi. Əminəm ki, Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcəkdir".

"Heydər Əliyev Qafqaz xalqları üçün elə böyük işlər görüb ki, bu gün onların hamısı qazandıqları müstəqillik və əminamanlıq üçün ona minnətdar olmalıdırlar" deyən Dağıstan Respublikası Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov söyləmişdi ki, Heydər Əliyevin öz xalqı, habelə Dağıstan xalqı qarşısında çox böyük xidmətləri vardır. Dağıstan xalqı heç vaxt onu unutmayacaqdır.

Acarıstan Muxtar Respublikası Ali Sovetinin sabiq sədri Aslan Abaşidze Ulu Öndər Heydər Əliyevlə bağlı fikirlərini belə dilə gətirmişdir: "Heydər Əliyevlə çoxlu görüşlər keçirmək mənə də nəsib olmuşdur. Mən bu dahi ilə həmişə fəxr etmişəm. Bu gün onun yoxluğu məni ürəkdən kədərləndirir. O, bizim xatirimizdə qüdrətli siyasətçi və müdrik prezident kimi qalacaqdır".

### Əbədiyyət yolu

2003-cü il dekabrın 15-də Heydər Əliyev Sarayında Ulu Öndərlə vida mərasimi yeddi saat çəkdi. Dəfndə iki yüz əlli min nəfər iştirak etdi. Yerli vaxtla saat 9.00-da tabutun önündə Azərbaycan Milli Qvardiyasının fəxri qarovul dəstəsinin düzülməsi ilə vida mərasimi başladı. Yerli məsciddə də eyni vaxtda cənazə namazı qılındı. Rəsmi mərasimdən sonra uzun yürüş baş tutdu.

Ulu Öndər Heydər Əliyev Fəxri xiyabanda dəfn edildi. Dəfn zamanı artilleriya atəşi açıldı.

Həmin gün xalq öz Böyük oğluna son borcunu vermək üçün Fəxri xiyabana axışdı, yüz minlərlə insan xilaskar saydığı rəhbərini son mənzilə yola saldı…

Dəfndən sonrakı günlər ərzində də Ulu Öndərin məzarına ziyarətə saysız insan gəldi…

Bu gün də xalqımızın ən sevincli, qürurlu, qəhərli günlərində üz tutduğu müqəddəs ünvanlardan biridir Fəxri xiyaban, Ulu Öndər Heydər Əliyevin uyuduğu məzar…

Qədirbilən xalqımız Baş ziyarətgaha gəlir, Ulu Öndərin ruhuna dualar edir, dərin ehtiramını bildirir, məzarını əklillərə, gül-çiçəyə qərq edir…

Bütün bunlar Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının hər bir nümayəndəsinin ürəyində əbədiyyaşarlıq qazanmasının bariz göstəricisidir…

Ruhun şad olsun, uca insan, Azərbaycan xalqının Böyük oğlu Heydər Əliyev!

Bu xalq səni daim minnətdarlıqla anacaq, qəlbində əbədiyyətədək yaşadacaq!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*